https://doi.org/10.52094/YHEC6915

**UOT: 792.5**

# AZƏRBAYCAN TEATRINDA ÜZEYİR HACIBƏYLİ FENOMENİ

**Məryam Əlizadə**
*Əməkdar incəsənət xadimi,*
*sənətşünaslıq elmləri doktoru, professor*

Üzeyir bəy Azərbaycan xalqının dahi sənətkarıdır. O, həmişə xalqının istədiyini, arzuladığını duyub yazıb, onun şah damarını tutmağı bacarıb. Möhtəşəm əsərləri bu şah damarlarından süzülüb gəlib.

Bax, elə buna görə də Üzeyir bəy ilk növbədə Azərbaycan incəsənətinin, musiqisinin (ədəbiyyatının da, mətbuatının da!), elminin və Azərbaycan teatrının fenomenidir, milli ədəbi-bədii (musiqi və teatr) düşüncənin fenomenidir.

Həm də Azərbaycan teatrının fenomenidir.

Və nə gözəl ki, Üzeyir bəy bu gün də bizimlədir, yəni Azərbaycan teatrı ilə birlikdədir. Deməli, o Azərbaycan teatr düşüncəsinin  və qavrayışının da fenomenidir.

Bir anlamda fenomen hadisənin, təzahürün duyğusal müşahidəsidir. Digər bir anlamda isə fenomen artıq hamıya bəlli məlum bir hadisəni, bir təzahürü işarələyir, nişan verir. Hərçənd ki, bu hadisə, bu təzahür müəyyən antropoloji, sosial-psixoloji, fəlsəfi-kulturoloji bilgi sistemlərinə uyğun olsa da, onun dərki çətindir.

Üzeyir bəy öz yaradıcılığında Azərbaycanda yeni bir ədəbi-bədii missiyada sənət meydanına atıldı.

Dahi alman filosofu Edmund Husserl fenomenə tamam fərqli bir yöndən yanaşır. Onun fəlsəfi paradiqmasında fenomen təkcə nəsnələrin keyfiyyətinin müşahidəsi kimi qiymətləndirilmir, həm də hadisənin məzmun birgəliyi kimi dəyərləndirilir.

Üzeyir bəy öz ədəbi-bədii yaradıcılığının məzmun birgəliyi baxımından da fenomendir. Odur ki, bəstəkar Üzeyir bəyi publisist Üzeyir bəydən, musiqişünas-alim Üzeyir bəydən, dramaturq Üzeyir bəydən, görkəmli teatr xadimi Üzeyir bəydən və... və... və... vələrdən ayırmağı, onların yerini müxtəlif

fəaliyyət sahələrinə görə müəyyənləşdirməyi heç də düzgün saymıram. Çünki onsuz bu yoxdur, bunsuz da o. Bir də ki, dahi Üzeyir bəy nə yazıbsa yazsın, fərqi yoxdur ki, bu operadır, operettadır, musiqili komediyadır, publisistik oçerkdir, teatr tənqidinə aid məqalədir və yaxudda ki, musiqişünas araşdırmasıdır. O, həmişə hər yaratdığı əsərində müasirini anlamağa çalışıb. Onun yaşantılarında, portretində dövrü, zamanı təcəssüm etdirib. Üzeyir bəy də Sinoplu Diogen kimi gündüzün günorta çağı əlində məşəl tutaraq xalqını, onun mədəniyyətini dünya miqyasına çıxartmaq uğrunda vuruşub-çalışıb və nə gözəl ki, buna nail olub.

Azərbaycan teatrında Üzeyir Hacıbəyli fenomenini öyrənmək Üzeyir bəy fenomenini küll halında Azərbaycan mədəniyyəti konteksində, dövrün ictimai-siyasi proseslərinin, təbəddülatlarının müstəvisində təhlil etmək, onun yaradıcılığının bütövlüyünü teatr və dramaturgiya materialına söykənərək ortaya qoymaq cəhdindən irəli gəlir.

Üzeyir bəyin yaradıcılığının bütövlüyü isə xarakterinin, təbiətinin, şəxsiyyətinin, özünə, xalqına və tarixi missiyasına sədaqətinin bütövlüyüdür.

Üzeyir bəy Azərbaycan incəsənətində, musiqisində, teatrında, musiqişünaslıq-sənətşünaslıq elmində bir günəş kimi parladı və nə gözəl ki, “140 yaşlı bu günəş” zaman keçdikcə artmaqda olan enerjisini bizdən əsirgəməməkdədir.

Bəli, Üzeyir bəy Azərbaycan bəstəkarlıq məktəbinin həm banisi, həm də onu inkişaf etdirəndir.

Bəli, Üzeyir bəy möhtəşəm teatr xadimidir.

Bəli, Üzeyir bəy Azərbaycan mədəniyyətinin hadisəsidir.

Onun Azərbaycan teatrı naminə göstərdiyi misilsiz fədakarlıq, ona həsr etdiyi möhtəşəm mətnlər bu gün bizim üçün həm mötəbər bir xəzinədir, həm də Azərbaycanın musiqili teatrının inkişafına böyük təkandır.

Üzeyir bəyin yaradıcılığı Azərbaycan incəsənətinin yeni bədii-estetik üfüqlərinin yeni bədii-estetik paradiqmasıdır.

Bəli, heç şəksiz ki, Üzeyir Hacıbəyli dedikdə gözümüz önündə Azərbaycan teatrının möhtəşəm fenomeni canlanır.

Üzeyir bəyin yaradıcılığı küll halında götürüldükdə enerji tutumu və mənəvi-psixoloji gərginliyi ilə fərqlənir. Müəyyən mənada onun keyfiyyətini bədii-estetik kollaps, enerji partlayışı adlandırmaq olar. Və bu partlayışın

nəticəsində yeni dünyalar, yeni aləmlər yarandı – ilk ölməz milli operamız, sonra ölməz operettalarımız, musiqili komediyalarımız, onun yetişdirdiyi yeni nəsil bəstəkarlarımız – daha nələr... nələr... nələr... möhtəşəm əsərlər yarandı.

Üzeyir bəyin yaradıcı başlanğıcının qayəsi passionarlıqdır. Mövcud gerçəkliyi dəyişdirməyə yönəlmiş bu enerji etnosları, millətləri, cəmiyyətin təbəqələrini və ayrı-ayrı fərdləri – Üzeyir bəy kimi böyük şəxsiyyətləri dinc, rahat həyatdan imtina edərək gərgin, təhlükəli – işıqlı əməllərə sövq edir. Böyük Füzuli öz zamanında “passionarlıq” terminini poeziya dili ilə “bəlayi-eşq” adlandırıb. Yeniliyə eşq öz-özlüyükdə nə qədər mübarək, qutlu və nəticə etibarilə, hamıdan ötrü faydalı olsa da, bu sevdaya tutulanları bir qayda olaraq, “bəlaya” salır...

Üzeyir bəy məhz passionarlığın çağırışı ilə yaradıcılıq meydanına atılır, onu bir enerji kimi gücləndirməyi bacarır, akkumilyasiya edir və ətalət enerjisinin hesabına süst hərəkətdə olan Azərbaycan milli incəsənətinin, musiqisinin, mətbuatının, ədəbiyyatının, teatrının... inkişaf prosesinə qoşulur.

Azərbaycan inəcəsənətinin bugünki bənzərsiz panoramı söylədiklərimizə bariz nümunədir.

**UDC: 792.5**

## THE PHENOMENON OF UZEYIR HAJIBEYLI IN AZERBAIJANI THEATRE

**Maryam Ali-zadeh**,
*Honored Art Worker of Azerbaijan*
*Doctor of Arts, Professor*

Uzeyir bey stands as a brilliant artist among the Azerbaijani people. He possessed an innate ability to perceive and express the aspirations and desires of his community; he understood how to connect with their very essence. His extraordinary creations emerged directly from this Essential source.

This is precisely why Uzeyir bey is, above all, a remarkable figure in Azerbaijani art and music, as well as in literature and journalism, scholarship, and theatre; he embodies a significant aspect of national literary and artistic thought, encompassing both musical and theatrical realms.

Moreover, he is a pivotal figure in Azerbaijani theatre.

It is truly delightful that Uzeyir bey continues to be a part of our lives today, alongside Azerbaijani theatre. This signifies that he remains a Vital Element of Azerbaijani theatrical thought and perception.

In one interpretation, a phenomenon refers to the sensory experience of an event or occurrence. In another interpretation, it signifies an event or occurrence that is already well-known and acknowledged. While such an event may align with various anthropological, socio-psychological, and philosophical-cultural frameworks, its understanding can still be complex.

Through his artistic endeavors, Uzeyir bey entered the cultural landscape of Azerbaijan with a fresh literary and artistic mission.

The esteemed German philosopher Edmund Husserl offers a distinct perspective on the concept of the phenomenon. Within his philosophical framework, a Phenomenon is not merely seen as the observation of an Object's qualities, but is also interpreted as a cohesive meaning inherent to the event itself.

Uzeyir bey stands as a remarkable figure, characterized by the profound unity of meaning that encapsulates his literary and artistic endeavors. Thus, I find it inappropriate to distinguish between Uzeyir bey the composer and Uzeyir bey the publicist, the musicologist, the playwright, the distinguished theatre personality – and the myriad other dimensions of his work – or to categorize them into separate professional realms. Each aspect is interdependent, and understanding him in isolation is simply not feasible.

Furthermore, irrespective of the genre he engaged with – be it an opera, an operetta, a musical comedy, a journalistic piece, a theatre critique, or a musicological exploration – Uzeyir bey consistently aimed to grasp the essence of his contemporaries. His lived experiences and artistic identity encapsulated the spirit of his time and era.

Much like Diogenes of Sinope, who famously carried a lantern in daylight, Uzeyir bey relentlessly endeavored to elevate his people and their culture onto the global stage – and it is indeed a stroke of fortune that he triumphed in this mission.

The exploration of the Uzeyir Hajibeyli phenomenon within Azerbaijani theatre stems from a desire to examine the entirety of the Uzeyir bey

phenomenon, situated within the broader context of Azerbaijani culture and against the backdrop of the socio-political dynamics and upheavals of his time, aiming to unveil the coherence of his creative legacy through theatrical and dramaturgical works.

The wholeness of Uzeyir bey’s artistic contributions mirrors the wholeness of his character, essence, and individuality – his unwavering loyalty to himself, his people, and his historical purpose.

Uzeyir bey radiated like a sun across Azerbaijani art, music, theatre, and the academic fields of musicology and art studies; and how splendid it is that this “140-year-old sun” continues to bestow its ever-expanding brilliance upon us as time unfolds.

Indeed, Uzeyir bey is recognized as the pioneer of the Azerbaijani school of composition and the individual who facilitated its growth.

Indeed, Uzeyir bey stands out as a remarkable theatre practitioner.

Indeed, Uzeyir bey is a significant figure in Azerbaijani culture.

His unmatched commitment to Azerbaijani theatre, along with the splendid texts he contributed, serves today as both a highly respected cultural treasure and a potent catalyst for the advancement of Azerbaijan’s musical theatre.

Uzeyir bey’s artistic legacy signifies a novel artistic and aesthetic framework – new artistic and aesthetic vistas within Azerbaijani art.

Certainly, when we mention Uzeyir Hajibeyli, the extraordinary phenomenon of Azerbaijani theatre vividly comes to mind.

Overall, Uzeyir bey’s body of work is characterized by its vast energy potential and profound spiritual and psychological impact. In a way, its essence can be described as an artistic-aesthetic eruption, a burst of energy. This eruption has given rise to new worlds and realms: our first timeless national opera, followed by everlasting operettas and musical comedies, a new wave of composers nurtured by him – and so much more… countless extraordinary works have emerged.

The core principle of Uzeyir bey’s creative drive is passionarity. This energy, aimed at altering the current reality, motivates ethnic groups, nations, social classes, and individual figures – great personalities like Uzeyir bey – to

forsake a tranquil and comfortable existence in pursuit of intense, risky, yet radiant endeavors. The illustrious Fuzuli, in his era, articulated what we now refer to as “passionarity” through the poetic expression of balā-yi ‘ishq – the “affliction of love.” However blessed, fortunate, and ultimately advantageous the love of innovation may be, those who are captivated by this passion often find themselves ensnared in “affliction”.

It is specifically in answer to the call of passionarity that Uzeyir bey stepped into the realm of creativity. He managed to enhance this drive as a source of energy, to gather it, and – through the power of this amassed momentum – to engage with and energize the evolving processes of Azerbaijani National Art, Music, Journalism, Literature, and Theatre, which had been progressing with inertia before.

The distinctive landscape of Azerbaijani art today serves as clear and persuasive proof of everything that has been articulated.